İKİNCİ SİNİF ŞAGİRDLƏRİ ÜÇÜN FƏALLIQLAR

Valideynlər övladlarının riyaziyyat və oxu üzrə bacarıqlarının yaxşılaşdırılmasında ətraflarında olan məişət vəziyyətlərinin istifadəsi ilə böyük rol oynaya bilərlər.

İkinci sinifdə şagirdlər müstəqil olaraq oxumağa başlayırlar və artıq sadə tənlikləri həll etməyə hazır olurlar. Hər bir uşağın təlim tempi fərdidir, amma övladlarının nailiyyətli təhsilində maraqlı olan valideynlər üçün yaxşı xəbərimiz var. Bir çox məişət halları riyazi və oxu bacarıqlarının inkişafı üçün dəyərsiz materiallar verir!

USAID FROM THE AMERICAN PEOPLE | G-PRIED | Georgia Primary Education Project

DƏVƏTNAMƏLƏR

Uşaqlar hər zaman öz ad günlərini səbirsizliklə gözləyirlər. Bu əhval-ruhiyyədən istifadə edin və qonaqlar üçün onun özünə dəvətnamələr hazırlatdırın (əgər qonaqları dəvət etmək istəmirsinizsə, o zaman onun sevimli cizgi filmi və nağıl qəhrəmanları üçün dəvətnamələr hazırlatdırın). Bunun üçün əvvəlcədən hazırlanmış mətnin modelini verin, məs.: “Piter Pen! Bazar günü saat 5-də dostlarınla birlikdə mənim ad günümə gəl. Qiorqi”

Eləcə də ailə üzvlərinə: anaya, ataya, bacıya, qardaşa, nənəyə və babaya dəvətnamələr yazıb paylaya bilər.

USAID FROM THE AMERICAN PEOPLE G-PRIED Georgia Primary Education Project

ETIKETI OXUYURUQ

Ərzaq aldıqda uşaqdan xahiş edin ki, etiketə baxsın və ucadan onun adını oxusun. Onu da soruşun ki, bu ərzaqdan nə üçün istifadə edilir.

Əgər etiketdə elə bir sözlər təsadüf edilsə, hansıların mənalarını başa düşmürlər, o zaman izah etməkdə onların yardımçısı olun.

USAID FROM THE AMERICAN PEOPLE G-PRIED Georgia Primary Education Project

İKİNCİ SİNİF ŞAGİRDLƏRİ ÜÇÜN FƏALLIQLAR

DOSTLARA MƏKTUBLAR

Uşağınıza uzaqda yaşayan ailə üzvləri və dostlar haqqında danışın. Uşağa köməklik edin ki, onlardan birinə qısa məktub yazsın. Məktubun nümunəsini göstərin, eləcə də mətn üçün sözləri seçməkdə köməklik edin. Uşaqdan xahiş edin ki, yazısını yaxşı bəzəsin, şəkillər əlavə etsin, stikerlər yapışdırsın və s.

USAID FROM THE AMERICAN PEOPLE G-PRIED Georgia Primary Education Project

TƏLIMATLARA ƏMƏL EDƏK

Səhər yeməyi, nahar və ya şam üçün hazırlıq zamanı uşaqdan xahiş edin ki, hər hansı bir sadə yeməyin (məs., buterbrodun) hazırlanması qaydasını ardıcıllıqla söyləsin. Deyin ki, siz onun diktəsi ilə deyilən kimi hazırlayacaqsınız. Əgər balaca sizə desə ki, yağ çəkin və bunun bıçaqla edilməsini qeyd etməsə, yağı çörəyin üzərinə barmağınızla çəkin. O dərhal başa düşəcək ki, göstəriş verdikdə hər bir xırdalıq və dəqiq ardıcıllıq nə dərəcədə vacibdir.

Belə bir fəallıqlarla uşaq adət edəcəkdir ki, göstərişdə ən əhəmiyyətsiz xırdalıq da nəzərdə tutulmalıdır.

USAID FROM THE AMERICAN PEOPLE | G-PRIED Georgia Primary Education Project

İKİNCİ SİNİF ŞAGİRDLƏRİ ÜÇÜN FƏALLIQLAR

MƏNIM SEVİMLİ TELEVİZİYA VERİLİŞİM

Uşağa qəzet verin. Qəzetdə müxtəlif televiziya kanallarının tam həftəlik proqramı verilmişdir və xahiş edin ki, qələmlə uşaq verilişlərini dairəyə alsın; ən çox sevdiyi verilişləri plyus işarəsi ilə qeyd etsin.

Verilişə baxmaq üçün sizin və onun üçün münasib vaxtı seçin.

Sevimli verilişə birlikdə baxın. İmkan verin ki, emosiyalarını sərbəst ifadə etsin və siz də ona qoşulun.

USAID FROM THE AMERICAN PEOPLE G-PRIED Georgia Primary Education Project

BOŞ YERLƏRİ DOLDUR

Uşaqla birlikdə uşaqlar üçün lövhədə, kompüterdə və ya vərəqdə qısa cümlə yazın. Bundan sonra xahiş edin ki, gözlərini yumsun. Yazılmış cümlələrdən bir neçə hərfi pozun. Uşaq gözlərini açandan sonra boş yerlərin doldurulmasını xahiş edin.

USAID FROM THE AMERICAN PEOPLE G-PRIED Georgia Primary Education Project

MƏN JURNALİSTƏM

Uşağınıza uşaqlar üçün jurnal və ya qəzetdən hər hansı bir məqaləni oxuyun. Təsəvvür etməsini xahiş edin ki, guya tele və ya radio jurnalistdir və bu əhvalatı aparıcı kimi ötürür.

USAID FROM THE AMERICAN PEOPLE G-PRIED Georgia Primary Education Project

CÜMLƏNİ TAPAQ

Uşağınızdan xahiş edin ki, hər hansı bir kitabı ucadan oxusun və aralarda ona suallar verin. Əgər balaca sərbəst oxuyursa, deyin ki, bir neçə səhifə geri qayıtsın və bu və ya digər konkret cümləni axtarıb tapsın. Məsələn:, 5 söz olan cümləni tapsın; əsas qəhrəmanın adı verilən cümləni tapsın; 2-ci abzasın 3-cü cümləsini və s.

Mətndə cümlələrin axtarılıb tapılması çox faydalı çalışmadır.

USAID FROM THE AMERICAN PEOPLE G-PRIED Georgia Primary Education Project

SƏSİNƏ QULAQ AS

Oxuyun və səsyazan aparatla övladınızın sevimli hekayəsini və ya nağılı yazın.

Evbdə olmadığınızda və ya məşğul olduğunuzda uşaq bu yazını dinləməklə yanaşı oxuya da biləcək. Bu çox faydalı bir fəallıqdır.

USAID FROM THE AMERICAN PEOPLE G-PRIED Georgia Primary Education Project

SEVİMLİ HEKAYƏ

Uşağı həvəsləndirin ki, sevimli hekayəsini kiməsə nağıl etsin. Auditoriya olaraq bacı-qardaş, nənə-baba, kuklalar və ev heyvanları da köməyə gələ bilərlər. Diqqəti ona yönəldin ki, bu zaman hansı çətinliklərlə üzləşəcəkdir, lazım gəldiyi halda, ehtiyatla müvafiq köməkliyi göstərin. Süjet və qəhrəmanlar haqqında sualları versəniz, bu balacanın nitq bacarığının inkişafına köməklik göstərəcək və kreativliyi (yaradıcılığı) oyandıracaqdır.

USAID FROM THE AMERICAN PEOPLE | G-PRIED Georgia Primary Education Project

İKİNCİ SİNİF ŞAGİRDLƏRİ ÜÇÜN FƏALLIQLAR

SÖZLƏRİ HECALARA AYIRAQ

Uşağa sözlərin hecalara ayrılmasında çalışmasına dəstək verək. Küçədə gəzinti zamanı və ya mağazada yazını göstərib xahiş edin:

- Sözü oxusun;
- Sözü hecalara ayırsın;
- Sözdə hecaları saysın.

USAID FROM THE AMERICAN PEOPLE G-PRIED Georgia Primary Education Project

DÜYMƏLƏRLƏ OYUN

Ailədə əşyaları yığdığınız zaman çalışın ki, övladınızın köməyindən istifadə edəsiniz, həm də elə etməlisiniz ki, ona çətin olmasın. Müxtəlif rəngli düymələr olan qutunu götürün. Xahiş edin ki, düymələri rənglərinin əsasında yığsın və ayrı-ayrı topalar ayırsın. Sonra saysın ki, hansı topada neçə düymə vardır və müqayisə etsin ki, hansı topada artıqdır və neçə ədəd.

Bu fəallıqla uşağın əşyaları hər hansı bir əlamətlə qruplaşdırmaq bacarığı inkişaf edəcəkdir, bununla yanaşı problemi effektli şəkildə həll etməyə alışacaqdır. Oxşar tapşırıqlar ona minimal vaxt ərzində maksimal nəticənin əldə edilməsində köməklik edəcəkdir. Bu fəallığın yerinə yetirilməsi üçün ərzaqlardan, sayılan məişət əşyalarından və sairədən istifadə edə bilərsiniz.

USAID FROM THE AMERICAN PEOPLE G-PRIED Georgia Primary Education Project

MƏTBƏXDƏ

Səhər-səhər, yemək hazırlamağa başladıqda və ya qonaqları gözlədikdə övladınızdan xahiş edin ki, süfrəyə qab-qacaq düzməkdə sizə kömək etsin. Ona cütləşdirmək üçün bərabər olmayan sayda stəkan və boşqabları verin (məs., 4 stəkan və 6 boşqab). Sonra soruşun: Neçə boşqab stəkansız qaldı? Cəmi neçə boşqab və stəkan vardır? Bu ədəddən əvvəl və sonra gələn ədəd hansıdır?

USAID FROM THE AMERICAN PEOPLE G-PRIED Georgia Primary Education Project

HAVA PROQNOZU

Övladınızı televizor qarşısına əyləşdirin və birlikdə xəbərlər verilişinə baxın, onda Gürcüstanın regionları və şəhərlərində havanın gözlənilən temperaturları haqqında məlumat verirlər. Məsələn: Tbilisi+17°,Rustavi+16°, Batumi+12°,Zuqdidi+14°,Xazbeqi +2°.

Göstəricilərə əsasən soruşun ki, sabah regionunuzda və ya şəhərinizdə temperatur neçə olacaqdır. İstidir və ya soyuqdur? Daha çox harada istidir və ya soyuqdur? və s.

Nəzərinizə alın: uşaq mənfi ədədləri hələ bilmir. Bunun üçün fəallıqları isti günlərdə keçirin.

USAID FROM THE AMERICAN PEOPLE G-PRIED Georgia Primary Education Project

AILƏ ÜZVLƏRININ YAŞI

İkinci sinif şagirdi olan övladınızdan xahiş edin, bacısının, qardaşının, nənəsinin, babasının yaşını öyrənsin və sonra da bu göstəriciləri böyükdən kiçiyə və ya əksinə düzsün. Bu tapşırıq başqalarının (qonşuların, qohumların və s.) yaşlarını öyrəndikdən sonra da yerinə yetirilə bilər.

USAID FROM THE AMERICAN PEOPLE | G-PRIED Georgia Primary Education Project

DOMİNO OYUNU

Uşaq öz yoldaşları ilə və ya bacı-qardaşı ilə domino oynayır. Əgər iki uşaqla birlikdə oynayırsınızsa, o zaman hər ikisinə üç-üç domino daşlarını paylayın və xahiş edin ki, bir-bir tərsinə çevirsinlər. Sonra domino daşının hər yarısında nöqtələri saysınlar. Kimin daşında daha çox nöqtə olacaqsa, həmin uşaq qalib gəlir. Bu fəallığı ədədlərin tapılması və müqayisəsi üçün bir neçə dəfə təkrar edirlər.

Sonra tapşırığı çətinləşdirin və deyin: “dominonun hər iki yarısında nöqtələri sayın (məs.: 6; 4), onların cəmini hesablayın (6+4). İkinci oyunçunun nöqtələrinin cəmi ilə müqayisə et. Kiminki artıq olarsa, həmin uşaq udur”.

USAID FROM THE AMERICAN PEOPLE G-PRIED Georgia Primary Education Project

QƏPİKLƏRLƏ OYUN

Uşağa müxtəlif dəyərdə qəpik (uşaq bunu çox sevir) verin və deyin: “sənin 35 tetrin var. Cəmi üç dənə qəpikdir. Necə düşünürsən, hansı qəpiklərin var?

Uşaq kombinasiyanı tapmalıdır, bu halda – bir 20-tetrilik, bir 10-tetrilik və bir 5-tetrilikdir.

Sonra şərti fərqli məbləğ ilə dəyişdirin. Uşaq qəpiklərin başqa kombinasiyasını tərtib etməlidir.

USAID FROM THE AMERICAN PEOPLE G-PRIED Georgia Primary Education Project

“MAĞAZA-MAĞAZA” OYNAYAQ

Evdə mağaza vəziyyəti səhnəsini oynayın. Uşaq “satıcı” ola bilər, hansı ki, mətbəxdə olan ərzağın qiymətini qoyur, siz isə “alıcı” rolunu oynayırsınız. Bir neçə ərzaq “alın” ki, balacaya toplama və cəmi qiymətini hesablamaq imkanını verəsiniz. Yavaş-yavaş qiymətləri “mürəkkəbləşdirin” (məs.,3 lari 50 tetri bir qab düyü üçün və s.).

Eyni oyunu uşağın paltarı və oyuncaqları ilə təkrar edə bilərsiniz.



USAID FROM THE AMERICAN PEOPLE G-PRIED Georgia Primary Education Project

HESABLAYAQ

Səhər yeməyini tematik oyuna çevirin. Məs., balacadan xahiş edin ki, almada çəyirtkələrin və ya cemdə gilasların dənələrini saysın. Eləcə də təklif edə bilərsiniz ki, bir dəstdə neçə peçenyenin olduğunu saysınlar, masanın üzərində neçə boşqabın olduğunu və s.

Eləcə də uşaqdan xahiş edin ki, hər ailə üzvünün nüçə xinkali yediyini saysın və sonra ailənin birlikdə neçə xinkali yediklərini saysın.

USAID FROM THE AMERICAN PEOPLE G-PRIED Georgia Primary Education Project

HARADA DAHA ÇOXDUR

İki camda eyni miqdarda, amma müxtəlif ölçüdə əşyaları yerləşdirin (məs., düyü və lobya dənələri) və balacadan soruşun ki, hansı camda daha çox əşya yerləşdirilmişdir. Sonra bir-bir sadalasın və müqayisə etsin ki, cavabın düzgün və ya yanlış olduğunu başa düşə bilsin.

USAID FROM THE AMERICAN PEOPLE | G-PRIED Georgia Primary Education Project

AYAQQABILARIN UZUNLUĞUNU ÖLÇƏK

Uşaqdan xahiş edin ki, xətkeşi götürsün və ailə üzvlərinin ayaqqabılarının uzunluğunu ölçsün. Ayırd etsin ki, məsələn, nənəsinin ayaqqabısı onun ayaqqabısından neçə sm uzundur.

USAID FROM THE AMERICAN PEOPLE G-PRIED Georgia Primary Education Project

CƏDVƏL

Aşağıda verilən cədvələ oxşar boş cədvəl çəkin. Uşaqdan xahiş edin ki, onda 1-dən 25 daxil olmaqla ədədləri artmasına əsasən yazsın. Əgər tapşırığı çətinləşdirmək istəyirsinizsə, o zaman əksinə azalmasına əsasən yazdırın.

1	10	11	18	7
16	20	3	14	22
2	25	9	13	24
12	5	31	4	17
19	23	15	6	8

Eyni çalışmanın variantlarından biridir: 25-xanalıq cədvəldə yazmaq üçün 1-dən 35-ə qədər ədədləri elə verin ki, hər hansı bir 10 ədədini buraxasınız. Uşağa bu 10 buraxılmış ədədi tapmağı xahiş edin. Eləcə də rollarını dəyişdirə bilərsiniz və uşaqdan xahiş edəsiniz ki, sizin üçün oxşar tapşırığı düşünüb tapsın.

Əgər 25-xanalıq cədvəli tərtib etməkdə çətinlik çəkirsə, o zaman başdan 12 və ya 15xanalıq cədvəldə cəhd etsin.

USAID FROM THE AMERICAN PEOPLE G-PRIED Georgia Primary Education Project

ALIŞ-VERIŞDƏ

Mağazaya getmək istədikdə, uşağa da imkan verin ki, ailə işində iştirak etsin.

Aydın və böyük hərflərlə alacağınız əşyaların siyahısını yazın. Mağazaya gedən zaman uşağa bu siyahını verin və xahiş edin ki, ardıcıllıqla oxusun və əşyaları axtarmaqda sizə köməklik etsin.

USAID FROM THE AMERICAN PEOPLE G-PRIED Georgia Primary Education Project

TƏK VƏ CÜT

Uşağa lobya dənələrini verin. Xahiş edin ki, dənələri iki-iki qruplaşdırsın. Əgər bir dənə artıq olarsa, o zaman deyin ki, bu qrupda dənələrin **tək** sayı vardır. Əgər bütün dənələr iki-iki düzülərsə, o zaman deyin ki, bu dənələrin **cüt** sayıdır. Bu yolla uşaq tək və cüt ədədləri seçməyi tezliklə öyrənəcəkdir.

USAID FROM THE AMERICAN PEOPLE G-PRIED Georgia Primary Education Project